Ədəbiyyat QƏZETİ

# Qərbi Kaspi Universitetində "Heydər Əliyev və gəncliyimiz" mövzusunda tədbir keçirilib



Mayın 30-da Qərbi Kaspi Universitetinin Filologiya və Tərcümə Məktəbində Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə Azərbaycan dili və ədəbiyyatı kafedrasının təşkilatçılığı ilə "Heydər Əliyev və gəncliyimiz" mövzusunda tədbir keçirilib.

Tədbirdə Filologiya və Tərcümə Məktəbinin tələbələri müxtəlif mövzulu məruzələrlə çıxış edib, Ümummilli Liderin irsinə müasir baxış sərgiləyiblər. Tədbir zamanı Heydər Əliyevə həsr olunmuş şeirlər tələbələr tərəfindən səsləndirilib, müxtəlif məsələlərlə bağlı Heydər Əliyevin meydana qoyduğu mövqe, siyasi iradə yeni düşüncə bucağından təhlilə çəkilib. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Uşaq ədəbiyyatı" şöbəsinin müdiri, "Ədəbiyyat qəzeti"nin ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya elmləri doktoru Elnarə Akimova və "Azərbaycan Dünyası" beynəlxalq jurnalının təsisçisi və baş redaktoru, "Dədə Qorqud" milli fondunun təsisçisi, publisist Eldar İsmayılov tədbirdə qonaq qismində iştirak edib, tələbələrlə fikir mübadiləsi aparıblar.



Tədbirin sonunda Elnarə Akimova tələbələrin çıxışlarına münasibət bildirməklə yanaşı, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq yönümlü siyasi fəaliyyətindən geniş söhbət açıb, onun vətən və dövlətçilik məfkurəsinin intibahında mərhələ təşkil edən mövqeyinin bütün dövrlər üçün prioritet olduğunu vurğulayıb. Ümummilli Liderin 100 illiyi ilə bağlı fərqli formatda görüş təşkil etdiyinə görə universitet rəhbərliyinə təşəkkür edən Elnarə Akimova qeyd edib ki, bu cür tədbirlər Heydər Əliyev irsinin diri saxlanılmasında, gənc nəslin gözü ilə yeni aktuallıq qazanmasında müstəsna rol oynayır.